# Salyanda taxılçılıq və pambıqçılığın vəziyyəti müzakirə olunub






**Fermerlərin, kənd təsərrüfatı mütəxəssislərinin, əlaqədar idarə, müəssisə, təşkilar rəhbərlərinin, inzibati ərazi nümayəndələrinin, bələdiyyə sədrlərinin iştirak etdiyi tədbiri Salyan Rayon İcra Hakimiyyətinin başçısı Rüstəm Xəlilov açmışdır.**

"2025-ci təsərrüfat ilində taxılçılıq və pambıqçılıq sahəsində kənd təsərrüfatı işlərinin mövcud vəziyyəti, problemlər və qarşıda duran vəzifələr" mövzusunda məruzə edən Salyan Dövlət Aqrar İnkişaf Mərkəzinin rəisi Taryel Atamalıyev bildirmişdir ki, cari təsərrüfat ilində rayon üzrə 12 min 696 hektarda taxıl əkilmişdir. Orta məhsuldarlıq 42,3, o cümlədən buğda üzrə 48,5, arpa üzrə 38 sentner olmuşdur. Qeyd olunmuşdur ki, 2024/2025-ci təsərrüfat ilində taxılçı fermerlərə dövlət tərəfindən 2 milyon 710 min manat subsidiya verilmişdir. Taxıl satışı və əkin subsidiyası birlikdə götürüldükdə fermerlər 18 milyon 820 min manat gəlir əldə etmişlər.

Məruzəçi cari təsərrüfat ili üçün payızlıq taxıl əkinlərinə hazırlıq işlərindən danışaraq bu məqsədlə iyun ayından başlayaraq şum işlərinin aparıldığını və işlərin yaxın günlərdə başa çatdırılacağını vurğulamış, əkin üçün rayonda kifayət qədər traktorun, malanın, səpin aqreqatının, keyfiyyətli toxumun tədarük edildiyini bildirmişdir.

DAİM-in rəisi pambıqçılıq sahəsində mövcud vəziyyəti təhlil edərək rayonda pambıq istehsalı və tədarükü ilə məşğul olan 4 şirkətin ("P- Aqro" MMC, "Praym Kotton" MMC, "Aztəsərrüfat" MMC və "Azərpambıq ASK" MMC) cari ilin əvvəlində fermerlərlə bağladıqları müqaviləyə əsasən, 9 min 669,6 hektar sahədə pambıq əkilib-becərildiyini nəzərə çatdırmışdır: "Həmin sahələrin bəzisində 4, 5, 6-cı kultivasiya aparılır. İndiyədək 9 min 397 hektar sahədə 2-ci vegetasiya suvarması, 16 min hektarda ketmənləmə, 13 min 408 hektarda yemləmə gübrəsinin verilməsi, 6 min 407 hektarda alaq otlarına qarşı dərmanlama, 40 min 505 hektarda xəstəlik və ziyanvericilərə qarşı mübarizə tədbirləri görülmüşdür".

Pambıqçılığa artan marağın əsas səbəblərindən biri dövlət tərəfindən fermerlərə verilən subsidiyalardır. Natiqin sözlərinə görə, 2016-cı ildən indiyəcən pambıq əkinlərinin dinamikası 2 min 168 hektardan 9 min 669,6 hektara, məhsuldarlıq isə 12 sentnerdən 40 sentnerə yüksəlmişdir. T.Atamalıyev onu da diqqətə çatdırmışdır ki, 2024-cü təsərrüfat ilində pambıq əkən fermerlərə 5 milyon 550 min manat subsidiya verilmişdir. Ümumilikdə isə xam pambığın satışı və məhsul subsidiyası ilə birlikdə fermerlər 28 milyon 673 min 343 manat gəlir əldə etmişlər.

Artıq pambıq sahələrində 20 - 40 faiz açılış müşahidə edilir. Mütəxəssislər bu mövsümdə sahələrdən ən azı 30 sentner məhsul yığılacağını proqnozlaşdırırlar. Sentyabrın 10-dan başlayaraq sahələrdə defaliyasiya işinə start veriləcək. Ötən illərdə olduğu kimi, cari ildə də ümumi məhsulun 90-95 faizindən çoxunun maşınlarla yığılması nəzərdə tutulur.

Müşavirədə xam pambığın qəbulu zamanı qapan və tərəzilərin, nəmlik, habelə zibillilik faizini müəyyən edən laboratoriya cihazlarının saz hala gətirilməsi, bu işdə dürüstlüyə əməl olunması, heç bir neqativ hala yol verilməməsi, pambığın yığılması və daşınması zamanı texniki təhlükəsizlik qaydalarına əməl olunması, baş verə biləcək yanğının qarşısının alınması məsələlərinə də toxunulmuşdur.

Yığıncaqda fermerlərdən və əlaqədar təşkilat rəhbərlərindən İlkin Əzizov, Elmar Xancanov, Mərdan Cəlilov, Arif Əliyev, Cavidan Bəşirli, İbadət Cəfərov, Hidayət Babayev və başqaları çıxış edərək pambığın suvarılması zamanı əkin suyunun bəzi ərazilərdə düzgün bölüşdürülmədiyindən, yerli çiyid sortlarının çatışmadığından və digər nöqsanlardan danışmışlar.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***